**Müasir Azərbaycan təhsilinin 15 ildən artıq bir dövrü ali təhsil pilləsində Boloniya, orta təhsil sistemində isə kurikulum sistemi ilə idarə olunur. Tədris prosesi bu iki sistem üzərində qurulan Azərbaycan təhsilinin mənzərəsindən aydın görünür ki, hər iki sistemə münasibət birmənalı deyil.**

# Cəmiyyətimizdə test-Boloniya təhsil sistemi ilə bağlı yenidən əks müzakirələr başlayıb

## *Kamran Əsədov: "Ən yaxşı halda, demək olar ki, bugünkü proqramlara yenidən baxmaq, günün tələbi ilə ayaqlaşmaq lazımdır"*

Azərbaycanda orta təhsildə kurikulum, ali təhsildə Boloniya sistemi olsa da, orta və ali təhsil müəssisələrində çalışan kadrların böyük əksəriyyətinin bu təhsil pillələrindən xəbərsiz olduğu məlumdur. Orta məktəbdə dərs deyən müəllimlərin xeyli hissəsi kurikulumun nə olduğunu, kurikulum əsasında dərs keçməyin yollarını bilmir. Kurikulumu dərk edə bilməyən müəllimlərin onu tədris zamanı tətbiq etməsi mümkünsüz olur.

Bu gün ali məktəblərin bir çoxu öz göstəriciləri ilə Boloniya səviyyəsinə uyğun gəlmir. Sirr deyil ki, ali məktəblərimizin çoxunda heç Boloniya sistemi doğru-dürüst oturuşmayıb.

Bir çox təhsil mütəxəssisi, eləcə də müəllimlər qeyd edirlər ki, Azərbaycan təhsilində Boloniya və kurikulum sistemi özünü doğrulda bilməyib. Odur ki, mütəxəssislərin çoxu bu sistemlərin ləğvinin tərəfdarı olaraq çıxış edir. Bəzi ekspertlər isə hesab edirlər ki, Boloniya və kurikulum sistemini ləğv etmək yox, onları təkmilləşdirmək lazımdır. Bu fikirdə olanlar qeyd edirlər ki, müasir dünya təhsili ilə ayaqlaşmaq adına zaman-zaman yeni və innovativ proqramlara müraciət etmək məcburiyyətindəyik.

Azərbaycanda Boloniya və kurikulum sisteminin ləğvinin labüd olduğunu deyən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov hesab edir ki, hər iki sistemin Azərbaycan təhsilinə heç bir xeyri olmayıb, əksinə, bəzi fəsadlar gətirib.

Qeyd edilənə görə, hər iki sistem artıq uzun illərdir Azərbaycan təhsilində tətbiq olunmaqdadır. Belə ki, Boloniya sisteminə ölkəmiz hələ 2005-ci ildə qoşulub. Bu proses Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılmasını nəzərdə tutur. Bu prosesin əsas tələblərindən biri ali təhsildə kredit sisteminin tətbiq edilməsidir. Bu sistem özündə əsas iki məsələni birləşdirir. Buraya tələbələrin mobilliyini təmin etmək və öz təhsilalma trayektoriyasını müstəqil müəyyənləşdirmək imkanları daxildir.

Boloniya prosesinə qoşulmaqla tələbələrin tədris yükünün həcmi azaldıldı, ənənəvi təhsil sistemində ixtisas üzrə tədris planında tam kursu bitirmək üçün tələbəyə 60-a yaxın fənnin tədrisi nəzərdə tutulurdusa, kredit sisteminə keçidlə əlaqədar olaraq təsdiq edilmiş yeni dövlət standartlarında fənlərin sayı və saatların miqdarı 2 dəfəyədək azaldıldı. Bu sistem üzrə müəllim daha məlumatlı olmalı, auditoriyaya daha hazırlıqlı şəkildə girməli, innovativ texnologiyalarda əks olunan faktlara və biliklərə yiyələnməlidir. Boloniya prosesi ali təhsilin iki - bakalavriat və magistratura səviyyələrində olmasını nəzərdə tutur.

Kurikulum sisteminə gəldikdə isə Azərbaycanda 2008-2009-cu tədris ilindən birinci siniflərdə bu sistemin tətbiqinə başlanıb. Kurikulumun məqsədi şagirdlərə müstəqil həyatda lazım olan əməli biliklərin öyrədilməsi, onların məntiqi təfəkkürü inkişaf etdirmək, öz fikrini müstəqil bildirmək və öz hüququnu qorumaq bacarığını aşılamaqdır. Bu sistem dünyanın bir çox ölkəsində tətbiq olunur. Lakin ölkəmizdə valideynlərin böyük əksəriyyəti bu sistemdən narazılıq edir, onun heç bir işə yaramadığını bildirirlər.



*"...onları təkmilləşdirmək vacibdir"*

Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, kurikulum sistemi dünyanın bir çox ölkəsində tətbiq edilir. "Məlum olduğu kimi, Azərbaycan ali təhsil müəssisələri 2005-ci ildən başlayaraq Boloniya sisteminə qoşulublar. Orta ümumtəhsil müəssisələrində isə 2008-ci ildən etibarən yeni təlim standartlarına, yəni kurikuluma keçildi. Əslində, hər iki sistem heç bir qeyri-adi təhsil standartı deyil. Bu, müasir dövrün tələblərindən irəli gəlir və onlardan imtina etməməliyik. Dünya yenilənir, müasirləşir və yeni tələblər meydana çıxır. Biz mütləq bununla ayaqlaşmalıyıq".

K.Əsədov vurğuladı ki, müəllimlərin özləri istər kurikulum, istərsə də Boloniya sisteminin üsullarını mənimsəyə bilmirlər. "Ona görə ki, onlar yeniliyə cavab verəcək bilik və bacarığa malik deyillər. Biz artıq yaddaş məktəbindən təfəkkür məktəbinə keçirik. Buna əsasən orta məktəblərdə təhsil alan hər bir şagirdimiz əldə etdiyi bilikləri əzbərçi yaddaşla mənimsəməməlidir. Onlar bunu anlamalı, qavramalı və buradan tənqidi təfəkkür ortaya qoyub, fikirlərini ifadə etməlidirlər" - deyə ekspert qeyd etdi.

O da hesab edir ki, kurikulum, Boloniya sistemini ləğv etmək yox, onları təkmilləşdirmək lazımdır: "Söhbət kurikulum sistemindən gedirsə, bu sistem mütləq şəkildə təkmilləşdirilməlidir. Orta ümumtəhsil məktəbləri üçün standartlar yazılarkən daha çox akademik biliklər önə çıxarılıb. Halbuki, dövrün tələbləri tamamilə fərqli məsələlər istəyir".

Ekspert, həmçinin, qeyd edir ki, Azərbaycan ali təhsil müəssisələri dünya reytinqində yoxdur və yeni dünyanın çağırışlarına uyğunlaşa bilmirlər. "Hətta 2005-ci ildə qoşulduğumuz Boloniya sisteminin tələblərini belə özlüyündə dəyişdirdik və özümüzünküləşdirdik. Məsələn, Boloniya sistemində ali təhsil müəssisəsində mühazirə və bu kimi məsələlər olmasa belə, biz onları əlavə etdik. Həmçinin, həmin sistemdə məsafəli təhsil nəzərdə tutulsa da, bizdə hələ də bu cür təhsil yoxdur. Yəni biz, sadəcə, hər iki sistemə yalnız hüquqi baxımdan kağız üzərində keçmişik, amma praktiki olaraq biz yenə ənənəvi qaydada prosesi qururuq. Məsələn, orta təhsil müəssisələrində tələblər kurikulum tələblərinə uyğun qurulmalıdır, amma qurulmur. Ona görə qurula bilmir ki, kurikulumun tələbləri ilə dərs keçmək üçün müəllimin əməkhaqqı 1000-1500 manat olmalıdır. Çünki o, növbəti günün çap materiallarını, rəngli kağızlarını hazırlamalı, müəyyən summativlər, qiymətləndirməni tətbiq etməlidir. Bunun üçün isə onun həm kifayət qədər resursu, həm də vaxtı sərf olunur. Bunun qarşılığında aldığı əməkhaqqı isə yetərli deyil. Ona görə də kurikuluma daxil olan dərslərin hamısı formal xarakter daşıyır" - deyə o qeyd etdi.

K.Əsədov onu da vurğuladı ki, Azərbaycanda "kurikulum, Boloniya özünü doğrultmadı" deməyin özü mənfi haldır. "Bilirsiniz, "kurikulumu ləğv etmək və ya bu özünü doğrultmadı" kimi ifadələri düzgün hesab etmirəm. Hörmətli təhsil ağsaqqallarımızın bu günlərdə yayılan fikirlərinin geniş izahına ehtiyac var. Müasir dünya təhsili ilə ayaqlaşmaq adına zaman-zaman yeni və innovativ proqramlara müraciət etmək məcburiyyətindəyik. Kurikulum termini proqram sözünün sinonimi kimi qəbul edilib. Ən yaxşı halda, demək olar ki, bugünkü proqramlara yenidən baxmaq, günün tələbi ilə ayaqlaşmaq lazımdır. "Kurikulumu ləğv edək" deyərkən nəyi nəzərdə tuturuq? Mənə görə, proqram, qayət, doğrudur. Lakin icrasında hansısa problemlər var və bu da həll olunmalıdır. Bu başqa məsələ... Bu sistemin bu cür olmasının yeganə səbəbi məktəbdə keçirilən təfəkkür yönümlü tədrisin son nəticədə qiymətləndirilməsinin düzgün aparılmamasıdır. Həyati bacarıqlara, praktiki biliklərə söykənən dərsi keçən müəllimin şagirdi qəbul imtahanında, sadəcə, bilikdən imtahan verir. Bunu da görən müəllim valideynin tələbinə cavab vermək üçün dərslikləri kənara atıb ənənəvi bilik yüklü dərsə üz tutur. Bu da ona gətirir ki, kurikulum özünü doğrultmadı, bizə nə qazandırdı, nə aldı?

**Qazanılanlar:**

**- Təlimalma, təlimə getmə mədəniyyəti**

**- Təlimçilər**

**- Şagird mərkəzli təlim-tədris**

**- Müəllimin müasir tədrisdə yeni fasilitasiya rolunu anlaması**

**- Təlimdə və tədrisdə müxtəlif üsullar**

**- Əyaniliyin artması**

**İtirilənlər:**

**- Maddi vəsait**

**- Klassik müəllim özünəməxsusluğu**

**- Kurikulumun bəzi müəllimlər tərəfindən anlaşılmadığı səbəbilə standart müəllim yanaşması" - deyə K.Əsədov qeyd etdi.**

***İradə SARIYEVA***